AZƏRBAYCAN RESPUBLİKASININ

# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**№ 255**

**Bakı şəhəri, 7 iyun 2018-ci il**

**“Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı”nın təsdiq edilməsi haqqında**

“Mədəniyyət və turizm sahəsində dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 aprel tarixli 4 nömrəli Sərəncamının 2.7-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

“Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı” təsdiq edilsin (əlavə olunur).

**Azərbaycan Respublikasının**
**Baş naziri** **Novruz Məmmədov**

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2018-ci il 7 iyun
tarixli 255 nömrəli qərarı ilə
**təsdiq edilmişdir.**

## Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların

## SİYAHISI

1. Təhsil müəssisələri:
1.1. Azərbaycan Turizm və Menecment Universiteti;
1.2. Bakı Turizm Peşə Məktəbi;
1.3. Mingəçevir Turizm Kolleci.

2. Dövlət qoruqları:
2.1. “Yanar dağ” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu;
2.2. “Atəşgah məbədi” Dövlət Tarix-Memarlıq Qoruğu;
2.3. “Basqal” Dövlət Tarix-Mədəniyyət Qoruğu;
2.4. Azərbaycan Respublikasının “Xınalıq” Dövlət Tarix-Memarlıq və Etnoqrafiya Qoruğu;
2.5. “Lahıc” Dövlət Tarix-Mədəniyyət Qoruğu;
2.6. “Yuxarı Baş” Dövlət Tarix-Memarlıq Qoruğu (Şəki şəhəri “Karvansaray” Mehmanxana Kompleksi daxil olmaqla);
2.7. “Kiş” Tarix-Memarlıq Qoruğu.

3. Turizm İnformasiya mərkəzləri:
3.1. Bakı Turizm İnformasiya Mərkəzi (“Baku City Tour” turist avtobusları daxil olmaqla);
3.2. Şamaxı Turizm İnformasiya Mərkəzi;
3.3. Xaçmaz Turizm İnformasiya Mərkəzi;
3.4. Quba Turizm İnformasiya Mərkəzi;
3.5. Lənkəran Turizm İnformasiya Mərkəzi;
3.6. Gəncə Turizm İnformasiya Mərkəzi;
3.7. Şəki Turizm İnformasiya Mərkəzi;
3.8. Zaqatala Turizm İnformasiya Mərkəzi;
3.9. Qəbələ Turizm İnformasiya Mərkəzi;
3.10. İsmayıllı Turizm İnformasiya Mərkəzi;
3.11. Bərdə Turizm İnformasiya Mərkəzi.

4. Təsərrüfathesablı qurumlar:

4.1. “Azərbaycan Konqreslər Bürosu” Məhdud Məsuliyyətli Cəmiyyəti;

4.2. “Şahdağ” Qış-Yay Turizm Kompleksinin Müdiriyyəti;

4.3. “Şahdağ Turizm Mərkəzi” Qapalı Səhmdar Cəmiyyəti.

5. Digər qurumlar:

5.1. Milli Kulinariya Mərkəzi.

**Qeyd.** Bu Siyahıda dəyişikliklər Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.